# Ermənistanın cəfəng iddiaları "tükənmir"

## Paşinyan uydurma bəyanatları ilə özünü yenə ifşa etdi

**Guya, sülh tərəfdarı olan, Azərbaycan və Ermənistan arasında bir-birinin ərazi bütövlüyünün tanınması əsasında sülhün bərqərar olmasına dair razılığa sadiqliyini vurğulayan, Azərbaycanla davamlı və sabit sülhün yaranması üçün imkanlar olduğunu deyən Nikol Paşinyan digər tərəfdən də ölkəmizə qarşı əsassız iddialarla çıxış edir.**

Demək olar ki, Vətən müharibəsindən sonra Ermənistanın daim ikili mövqeyini görürük. Təbii ki, əsas olan sözlər deyil, deyilənlərin həm də praktiki olaraq həyata keçirilməsi, sənəd üzərində təsdiqini tapmasıdır.

Ermənistan rəhbərliyi bir tərəfdən, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, sülhdə maraqlı olduğunu desə də, digər tərəfdən, törətdiyi təxribatlar bunun yalnız oyun olduğunu göstərir. Elə Laçın sərhəd-buraxılış məntəqəsində Ermənistanın törətdiyi son təxribatlar bunun bariz nümunəsidir.

Əslində, Ermənistan əməlləri ilə heç də sülhdə maraqlı olmadığını daim göstərib və indi də buna davam edir. "Sülh tərəfdarı" olan Paşinyanın hökumətin son iclasında Azərbaycanla bağlı iddiaları da Ermənistanın niyyətini bir daha ortaya qoydu. Baş nazir dedi ki, Azərbaycan sülh müqaviləsi imzalandıqdan sonra, guya, Ermənistana ərazi iddiaları irəli sürmək istəyir. Bu, yenə də sülh sazişinin imzalanmasını ertələmək üçün beynəlxalq ictimaiyyəti əsas məsələlərdən yayındırmaq cəhdindən başqa bir şey deyil.

3

Azərbaycan
5 avqust 2023-cü il
S. 1; 3.
RƏSMİ DÖVLƏT QƏZETİ

# Ermənistanın cəfəng iddiaları "tükənmir"

## Paşinyan uydurma bəyanatları ilə özünü yenə ifşa etdi

*Əvvəli 1-ci səh.*

Bununla da Ermənistan vəziyyəti gərginləşdirməklə yekun sülh sənədindən yayınmağa cəhd edir.

### Eyni mövqe, oxşar ssenari

Siyasi ekspertlər də hesab edirlər ki, Ermənistan bütün zamanlarda eyni ssenarini həyata keçirib. Bu gün isə rəsmi İrəvan siyasi şantajla məşğuldur.





Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib ki, N.Paşinyanın hökumətin iclasında çıxışı Ermənistanın, əslində, mövcud şərtlərlə sülh müqaviləsinin imzalanmasını istəmədiyini bir daha nümayiş etdirdi. İrəvanın niyyəti vaxt qazanaraq 44 günlük müharibədə potensialı məhv edilmiş fərari ordusunu yenidən qurmaq, silahlanmaq və müharibədən əvvəlki status-kvonu bərpa etməkdir: "Revanşist niyyəti həyata keçirmək üçün güc toplayana qədər Ermənistan hərbi, siyasi, informasiya təxribatları ilə Azərbaycana qarşı cəbhə formalaşdırmağa çalışır. Bu işdə isə Ermənistanla birgə hərəkət edən, yaxud etməyə hazır olan Avropa İttifaqı Parlamenti, Fransa, İsveçrə, İran, ABŞ və Rusiyanın bəlli dairələri, bir sıra "humanitar" və "insan haqları" missiyalarını yerinə yetirən təşkilatlar kifayət qədər aktivlik nümayiş etdirirlər. Təbii ki, cənab İlham Əliyevin hərbi-siyasi yolla formalaşdırdığı reallıq Ermənistan və havadarları tərəfindən dəyişdirilə bilməz, həm öz güc və imkanlarımız, həm müttəfiqlərimiz bu reallığın regionda sülh və sabitliyin bərqərar edilməsinin qarantına çevrilib".

Deputat qeyd edib ki, Ermənistan baş nazirinin Laçın sərhəd-buraxılış məntəqəsinin fəaliyyəti, eləcə də ərazi bütövlüyü və delimitasiya məsələsində qeyri-konstruktiv, perspektivsiz bəyanatlar verməsi, İrəvanın ötən ilin oktyabrından etibarən Azərbaycanın ərazi bütövlüyünü tanıması, bu ilin may ayından isə ərazi bütövlüyünü dəfələrlə rəqəmlərdə ifadə etməsi mövqeyi ilə ziddiyyət təşkil edir. Paşinyan beynəlxalq hüquqa və BMT Nizamnaməsinə zidd yanaşma ilə beynəlxalq ictimaiyyəti yanlış məcraya yönləndirə biləcəyini düşünür, lakin unudur ki, artıq informasiya müharibəsində də diktə edən tərəf Azərbaycandır. Bütün bunların fonunda Ermənistanın 15 iyun tarixində Həkəri çayı üzərindəki körpüdə hərbçilərimizə atəş açılmasında ehtiva olunan təhlükəli tendensiyanı Azərbaycanın təxribatı kimi təqdim etməsi, dövlət xadiminə yaraşmayacaq, məişət səviyyəli yalan idi. Çünki 15 iyun təxribatının hər saniyəsi kameralar tərəfindən qeydə alınıb. Bütün bunların fonunda baş nazir kameralar önündə qeyd edilən bəyanatı verə bilirsə, erməni cəmiyyəti özü bundan dərs çıxarıb yalançı bir iqtidarla ehtiyatlı davranmağın vacib olduğunu anlamalıdır.

B.Məhərrəmov vurğulayıb ki, Laçın sərhəd-buraxılış məntəqəsi qurulmazdan öncə Ermənistan bu yolla qanunsuz fəaliyyət göstərib, müharibə cinayətlərini davam etdirib və bunun nəticəsidir ki, ərazilərimizdə sonradan basdırılan 2021-ci il istehsalı olan minalar aşkarlanıb. "Ermənistanın açıq formada qondarma rejimi təbliğ etməsi, müharibə cinayətlərini bitirməməsi fonunda Azərbaycanın suveren haqlarından istifadə etməklə Laçında sərhəd-buraxılış məntəqəsi qurması mübahisə mövzusu deyil və ola da bilməz. Əgər Ermənistan hələ də bu mövzuda israrlıdırsa, deməli ki, ərazi bütövlüyü və suverenliyə, eləcə də delimitasiya prosesinə sadiq deyil. Hüquq da, ədalət də Azərbaycan tərəfindədir, lakin bütün bunlarla yanaşı, Azərbaycanın çox sadə bir arqumenti var: Ermənistan iyunun 15-də, ondan əvvəl və sonra analoji təxribatların yenidən törədilməyəcəyi ilə bağlı zəmanət verə bilərmi? Paşinyan yenidən Qarbağ ermənilərinin "humanitar fəlakətə məruz qalması" barədə danışır. Əgər İrəvan üçün humanitar vəziyyət önəmlidirsə, Ağdam-Xankəndi yolu ilə erməni sakinlərin tələbatlarının ödənilməsi təklifinə niyə etiraz edir?", - deyə deputat əlavə edib.

B.Məhərrəmovun fikrincə, hökumətin iclasında azərbaycanlılara qarşı soyqırımı daxil, insanlıq əleyhinə cinayətlər və kütləvi qırğınlar törədilməsinə görə məsuliyyət daşıyan şəxsləri müdafiə və onların əməllərini ört-basdır etmək cəhdləri ilə Paşinyan Ermənistanı ifşa etmiş oldu. Baş nazir bir daha göstərdi ki, əslində, bu cinayətlər dövlət səviyyəsində törədilib, soyqırımı və deportasiyanın təhrikçisi və təşkilatçısı elə Ermənistan dövlətinin özüdür.

Əlbəttə, Azərbaycan üçün Paşinyanın bəyanatları yeni deyil, eyni ssenari üzrə növbəti çıxışdır. Paşinyan anlamalıdır ki, Azərbaycan sərhədçisinin yaralanması ilə nəticələnmiş hücumdan sonra araşdırmalar, habelə məntəqənin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq tədbirlərin görülməsini "blokada" kimi qiymətləndirməklə, Ermənistan nəsə əldə edə biləcək, nə də Azərbaycan özünün suveren haqlarından imtina edəcək. Yəni bu çıxışlar nəyisə dəyişə bilməz, lakin danışıqların tərəfi olan bir ölkənin baş nazirinin yersiz iddialarının sülh prosesinə mənfi təsiri qaçılmazdır.

### Paşinyanın söylədikləri cəfəngiyyatdan başqa bir şey deyil

Milli Məclisin deputatı Fazil Mustafa qəzetimizə açıqlamasında bildirib ki, Nikol Paşinyanın hökumətin iclasında səsləndirdiyi Azərbaycana qarşı iddiaların hamısı cəfəngiyyatdır.

Deputat qeyd edib ki, Azərbaycan Ermənistana qarşı hər hansı ərazi iddiası irəli sürməyəcək: "Bu, Azərbaycan dövlətinin prinsiplərinə ziddir. Bizim öz ərazilərimizi qorumaqdan başqa hansısa imperiya xəyallarımız, böyük ərazi iddialarımız yoxdur. Azərbaycanın hər hansı dövlətin ərazi bütövlüyünə müdaxilə etmək niyyəti yoxdur və bundan sonra da olmayacaq. Çünki biz torpaqlarımıza gözdikmənin acı nəticələrini yaşamış xalqıq. Biz erməni məntiqi ilə düşünmürük, azərbaycanlı-türk məntiqi ilə düşünürük ki, qonşuya hörmət etmədən bölgədə yaşamaq olmaz".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***